

■ **Mayis Səlim,** *Şəki*

## SÖZÜM

Məni sözlə tanıyın,
Söz - əslimdir, soyumdur.
Sözlə deyib-gülərəm,
Söz - bayramım, toyumdur.

Həm atamdır, həm anam,
Söz - sevimli balamdır.
Ona arxalanmışam,
Söz - basılmaz qalamdır.

Onsuz nəyim olar ki,
Sözdür dövlətim, varım.
Ona könül vermişəm,
Sözdür sevgilim, yarım.

Söz - heç zaman solmayan
Çiçəkli baharımdır.
Söz - ürəkdə bəslənən
Ən xoş arzularımdır.

Təkcə sözün acıyam,
Gözü-könlü toxam mən.
Harda sözüm olmasa,
Bilin, orda yoxam mən.

## ELƏ BİLİR Kİ

Yaman yazığım gəldi
Bu gün özüm-özümə.
Vallah, bir ağladım ki,
Qan-yaş doldu gözümə.

Soyuqdan titrəyirəm,
Odum çoxdan sönübdür.
Sözüm - anası ölmüş
Bir körpəyə dönübdür.

Əlimdəki iynədir,
Özümə gor qazıram.
Baxan elə bilir ki,
Mən də şeir yazıram.

## OLMADI

Mənim güvəndiyim dağlar,
Hər vaxt öyündüyüm dağlar,
Bərk-bərk söykəndiyim dağlar,
Büdrədim, dayaq olmadı.

Vurdu məni tufan, dolu,
Seçəmmədim sağı, solu.
Qarşımdakı kəsə yolu
Getməyə ayaq olmadı.

Gözlərimi yaş götürüb,
Yollarımı daş götürüb.
Bu dünyadan baş götürüb
Qaçardım bayaq, olmadı.

Hey ovutdum ürəyimi,
Çox gizlətdim göynəyimi.
Qana batmış köynəyimi
Yellədim, bayraq olmadı.

Taleyimə düşdü düyün,
Dərd-qəm gördüm löyün-löyün.
Yaşadığım bu ömür-gün
Mən deyən sayaq olmadı.

## YEDİLƏR

Məni yaman aldatdılar,
Yaxşı başımı yedilər.
Kor eləyib gözlərimi,
Üstdən qaşımı yedilər.

Dərd-sərimi duymadılar,
Bir an rahat qoymadılar.
Kəsəyimdən doymadılar,
Hələ daşımı yedilər.

Köhnəlmişəm, tökülmüşəm.
Dağılmışam, sökülmüşəm.
Axır, gördülər, ölmüşəm,
Ehsan aşımı yedilər.